# Atatürkə atılan erməni böhtanları



### II YAZI

Ermənistan Respublikası Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru, türkoloq Ruben Safrastyan "Mustafa Kamal. "Ermənistan Respublikasına qarşı mübarizə (1919-1921)" adlı monoqrafiyasının birinci hissəsində Mustafa Kamalın fəaliyyət dövrü, Sultanın əmri ilə Yıldırım Ordusunun komandanlığı vəzifəsini tərk edərək paytaxt İstanbula ayaq basması və sonrakı hadisələr yer alır. Bu baxımdan o, 1920-ci illərə aid çox mühüm bir sənəddən danışır. O yazır ki, "Noyabrın əvvəllərində Mustafa Kamal öz sadiq komandiri Kazım Qarabəkiri Ermənistana qarşı göndərdi. Bu sənəddə Qarabəkirə Ermənistanı ya məhv etmək, ya da "yox etmək" tapşırılıbmış.

Tarixi gerçəkləri oxucularına baş-ayaq çatdıran müəllif demir ki, durumun mürəkkəbliyindən istifadə edən Ermənistan Batum anlaşmasını pozmuş və ona bitişik əraziləri özünə birləşdirmişdi. Batumda müəyyənləşən 9 min kavadratkilometrlik ərazinin kənarına çıxmışdı. Türkiyə isə bu əraziləri azad etmək üçün hərbi müdaxiləni seçmişdi. Onu da demir ki, Gümrüdə ermənilər Kazım Qarabəkir paşanı gül-çiçəklə və "Xilaskar türk ordusuna alqışlar" şüarı ilə qarşılamışdılar...

Əslində, bu hadisədə gizli heç nə yoxdur. Ermənistan öz nəzarətində olan Şərqi Anadolunun bir çox yerində müsəlmanları qırğına məruz qoyurdu. Onları xilas etmək, Misaki-Milli sərhədləri daxilində dövlətini və millətini qorumaq Kazım Qarabəkir Paşanın rəhbərlik etdiyi orduya həvalə edilmişdi. O da hərbi vəzifəsini yerinə yetirmişdi. Bunun üçün Atatürkü günahlandırmaq məntiqli deyil.

Mustafa Kamalın ona güvənməsələr də, "Gənc türklər"in fəal üzvü olduğunu vurğulayan erməni türkoloq kitabında yazır ki, xüsusilə Ənvər paşa ona qətiyyən güvənmirdi. Adını "türkoloq " qoyan bu şəxs Mustafa Kamalla Ənvər paşanın münasibətlərinin tarixindən xəbəri yoxdur.

İkinci hissədə əsasən Mustafa Kamalın Ermənistan dövləti və erməni xalqına yanaşması haqqında çıxışları yer alıb. Şərhlər reallıqlardan uzaqdır. Ermənilərin Osmanlı imperiyasındakı roluna və erməni-türk müharibəsi başladıqdan və kamalistlərlə bolşeviklərin ittifaqından sonra türklərə verilən külli miqdarda silahlara xüsusi diqqət yetirilib. Atatürk manevrlərlə Qərbin və bolşeviklərin razılığını qazana bilməsi kimi absurd anlayışlarla erməni oxucularına təqdim olunur.

İrəvan Dövlət Universiteti Ermənistanda "Türkiyə Cümhuriyyətinin tarixi" dərsliyini nəşr edib. Atatürk bu kitabda yenə də Ruben Safrastyan və digər türkoloq Ruben Melkonyan tərəfindən yazılan fikirlərlə anladılır. Atatürkün "erməni məsələsi"nə baxışı saxta erməni tezisləri üzərində qurulub. Osmanlı imperiyasını və onun varisi Türkiyə Cümhuriyyətini qondarma "erməni soyqırımı"nda ittiham etmək üçün guya Atatürkə bağlı heç bir nəşrdə yer almayan fikirlər həqiqət kimi verilir. Milliyyətçi seqment tərəfindən müxtəlif platformalarda tez-tez səslənən bu iddialar daha çox təbliğat məqsədi ilə irəli sürülür. Bunları dərs kitabına daxil etmək yolverilməzdir.

İrəvanda bir müddət əvvəl "Kamal Atatürk və ermənilərin deportasiya prosesi" adlı tədbir keçirilib. "Türklərin əcdadının rolu" adlı konfransda saxta "sənəd" irəli sürülüb. Bu sənədə əsasən, Cümhuriyyət dövründə ermənilərin ölkəyə qayıtması guya qadağan edilib. Ancaq Atatürk bu torpaqlarda yaşamaq hüququ olan bütün insanlara səslənərək, öz torpaqlarına qayıtmalarını istəmişdi.

Erməni iddialarından biri də Atatürkün guya "erməni soyqırımı"nı qəbul etməsi və 1915-ci il hadisələrini "soyqırımı" kimi qələmə verməsidir. Hələ ötən əsrin 20-ci illərində Atatürk ermənilərin qondarma "soyqırımı" iddialarını yalan kimi kəskin tənqid etmiş və bu təbliğatı aparanları "satqın" adlandırmışdı. Bu da maraqlıdır ki, Atatürkün dövründə 800 min ermənənin öldürüldüyü iddiaları irəli sürülüb. Sonra bu rəqəm 1 milyona, daha sonra isə 1,5 milyona çatdı. Görəsən Atatürk sağ olsaydı bu gün Türkiyədə bu erməni yalanını dəstəkləyənlərə nə deyərdi? O vaxt belə demişdir: "Erməni soyqırımı" ilə bağlı deyilənlərin həqiqətə uyğun olmadığı şübhə doğurmamalıdır. Əksinə, cənub bölgələrində xarici qüvvələr tərəfindən silahlandırılan ermənilər öz himayədarlarından ruhlanaraq öz yerlərində müsəlmanların üzərinə hücuma keçiblər. Bununla qisas düşüncəsi ilə hər yerdə amansız öldürmə və məhvetmə yolu ilə gedirdilər".

Atatürk erməniləri yaxşı tanıyırdı. Onlar "...Naxçıvandan tutmuş Oltuya qədər bütün islam xalqına zülm etmiş, bəzi yerlərdə dağıntılar və talanlar etmişlər. Sərhədlərimizə girmək, müsəlmanları köçməyə məcbur etmək, eyni zamanda onları özləri üçün dayağa çevrilmək məqsədilə 400 min Osmanlı ermənisini ölkəmizə sürgün etmək istəyirlər".

Bu son cümləyə diqqət yetirsək görərik ki, ermənilər nəyin bahasına olursa-olsun bu torpaqlarda insanları yerləşdirmək istəyiblər. Görünməmiş qırğınların hələ unudulmadığı o illərdə bu mümkün idimi? Əlbəttə, yox. Bir çox erməni ailəsi yenidən bu ölkəyə gəlməyə utanırdı. Onlar qətllərə görə bu insanlarla üzüzə gələ bilmirdilər. Amma erməni ideologiyası ilə "silahlanmış" bəzi erməni təşkilatları bu məsələdə on minlərlə ermənini qurban verməyə belə hazır idilər. Dünyanın ən böyük əsgəri və siyasətçisi Atatürk bu erməni oyunundan xəbərdar idi və çox ustalıqla bu planı alt-üst etdi. Planın baş tutmadığını görüncə, böhtan atmağa başladılar.

Erməni mənbələrini araşdırdıqda belə bir fikir ortaya çıxır: Ermənilərin Atatürkə hücumları hələ o hələ sağ ikən başlamışdır. "Ararat Center" erməni araşdırma mərkəzi fransız yazıçısı Paul du Véunun Parisdə nəşr olunan "Lé Désastre d' Alexandrette, 1934–1938" kitabının 121-ci və 122-ci səhifələrinin dipnotlarına istinad edərək Atatürkə böhtan atırlar. Paul du Veunun dediyinə görə, Mustafa Kamal 27 yanvar 1920-ci ildə İstanbul Hərbi Məhkəməsində ifadə verib və bu ifadəsində türklərin ermənilərı qətlə yetirdiyini bildirib. Paul du Véunun istifadə etdiyi bu qeydi sonralar erməni keşiş Jan Naslyan fərqli şəkildə işlətmişdir. Görün necə: "Bir zamanlar əllərində qan olmadığı üçün qürurlanan Mustafa Kamal 28 yanvarda isiqlal məhkəməsində günahı bir neçə adamın üstünə ataraq belə bir etiraf etdi. O, məqaləsində Atatürkü "Nemrut Mustafa" adlandırır. Sonradan məlum olmuşdur ki, bu erməni bilərəkdən məsələni Mustafa Kamalın üzərinə atmışdır. Sonra bu iyrənc böhtanı ifşa edəndə demişdilər: "Biz Mustafa Kamalı Süleymaniyyəli Mustafa Paşa ilə qarışdırdıq".

Ermənistan dövlətinə xəbərdarlıq edilsə də, səhvin kitabdan çıxarılması bildirilsə də, bu edilməyib. Oxşar "səhvlərə" bir il fərqlə, yəni 1919-cu ilin 27 fevral və ya 28 yanvar 1920-ci il tarixli nəşrlərdə yol verilmiş, sonra isə bir çox erməni yazıçıları tərəfindən təkrar edilmişdir. İndi bu yalan erməni mətbuatında yayılır və Atatürkə qarşı qarayaxma kampaniyalarında istifadə olunur.

Böhtanlardan biri də Mustafa Kamalın 1926-cı ildə "Los Angeles Examiner" qəzetinə verdiyi açıqlama ilə bağlıdır. Bu məsələ ermənilər tərəfindən müxtəlif yerlərdə və nəşrlərində dəfələrlə təkrarlanıb, hətta erməni lobbisi tərəfindən ABŞ Konqresinə çıxarılıb və təbliğat vasitəsi kimi istifadə olunub. Məsələn, 1994-cü ildə ABŞ Senatında senator Levinin irəli sürdüyü bu iddia Atatürkün heç bir əsərində yoxdur və sözügedən dövrdə çıxan qəzetlərdə də yer almır. Bunu "yazan" Hilderband adlı isveçrəli jurnalistin Türkiyəyə gəldiyinə dair heç bir qeyd yoxdur, İsveçrə rəsmilərinin təqdim etdiyi sənədlərdə də bu adda hər hansı bir izə rast gəlinmir. Atatürkün xarici media qurumlarına verdiyi müsahibələr yuxarıda adıçəkilən qəzetin və bugünkü erməni təşkilatı "Mitk"in iddia etdiklərinin tam əksini ifadə edir: "Əslində soyqırımı ermənilər törədiblər". Atatürk də bu fikirdə olmuş və onu dəfələrlə dilə gətirmişdir.

***Qfi a ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

Xalq qəzeti .- 2024.- 4 iyun, № 116.- S.5.